"TİTAN D"

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

VÖEN 1700262831

31.12.2022-ci il tarixdə bitən il üzrə

Auditor və Maliyyə Hesabatları

25 aprel 2023-cü il tarixli CA/01-04/22-M-20838 nömrəli müqaviləyə əsasən aparılmış auditin nəticəsinə dair auditorun yekun sənədlərinin

TƏHVİL - QƏBUL AKTI

Biz, aşağıda imza edənlər təsdiq edirik ki, İcracı–"Cəfəroğlu Audit" MMC-nin (VÖEN 1903370371) direktoru Rzalı ŞəhlaTahir qızı və sifarişci "Titan D" MMC-nın (VÖEN 1700262831) direktoru Çaparlı Cəmil Kərim oğlu arasında bağlanılmış 25 aprel 2023-cü il tarixli CA/01-04/22-M-20838 nömrəli nömrəli müqavilənin şərtlərinə uyğun olaraq aparılmış xidmət tam yerinə yetirilmişdir.

Auditin nəticəsinə görə sifarişçiyə aşağıdakı qaydada sənədlər təhvil verilmişdir:

1. Məktub-öhdəlik
2. Auditin aparılmasına dair müqavilə
3. Rəhbərliyin məsuliyyətinə dair hesabat
4. Müstəqil Auditor hesabatı
5. Maliyyə vəziyyəti haqqında hesabat
6. Mənfəət və zərərlər haqqında hesabat
7. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
8. Kapitalda dəyişikliklər haqqında hesabat
9. Maliyyə hesabatlarına şəhrlər və qeydlər

Təhvil verdi:

İcracı "Cəfəroğlu Audit" MMC

(VÖEN 1903370371)

Direktor Rzalı Şəhla Tahir qızı

Təhvil aldı:

Sifarişçi "Titan D" MMC

(VÖEN 1700262831)

Direktor Çaparlı Cəmil Kərim oğlu

Azərbaycan Respublikası
Bakı şəhəri
"Cəfəroğlu Audit" MMC
VÖEN 1903370371

Azerbaijan Republic
Baku City
"Cəfəroğlu Audit" LTD
İNN 1903370371

"Titan D" MMC-nin direktoru

cənab Çaparlı Cəmil Kərim oğlua

AUDİTİN APARILMASINA DAİR MƏKTUB-ÖHDƏLİK

Hörmətli Cəmil müəllim!

"Titan D" MMC-nin (VÖEN 1700262831) 01.01.2022-ci il tarixdən 31 dekabr 2022-ci il tarixinə olan balans, gəlirlər və zərərlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu Məktub-öhdəlikle təsdiq edirik. Auditin məqsədi 01.01.2022-ci il tarixdən 31 dekabr 2022-ci il dövrü üzrə "Titan D" MMC-nin mühasibat (maliyyə) hesabatlarının və tətbiq olunan əhəmiyyətli uçot siyasətinin dürüstlüyü haqqında auditorun fikrini ifadə edən rəy verməkdən ibarətdir.

Audit testlərinin seçilmə və digər özünə məxsus xüsusiyyətlərini, auditlə əhatə olunacaq sənədlərin həmçinin böyük olmasını nəzərə alaraq, ayrı-ayrı qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Həmin riskin minimuma endirilməsi üçün mümkün tədbirlər görəcəyik, lakin nəticənin tam dəqiqliyinə zəmanət verə bilmərik. Siz mühasibat uçotu və hesabatların qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında bizi yazılı hesabatımızla məlumatlandıracaqsınız.

Bundan başqa, Sizin tapşırığınıza və qarşılıqlı razılaşmaya əsasən əlavə xidmətlər göstərməyə hazırıq.

Biz auditin aparılmasına dair müqavilənin şərtlərinə və «Auditor Xidməti Haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyimiz xidmətlərə görə məsuliyyət daşıyacağıq. Biz sizin təşkilatın kommersiya sirrinə riayət edilməsinə dair öhdəliyi öz üzərimizə götürürük.

Biz "Titan D" MMC-nın rəhbərliyindən xahiş edirik ki, audit üçün təqdim edilən bütün məlumatların tam və dürüst olmasını rəsmi təsdiq etsin.

Sizin işçilərlə hərtərəfli əməkdaşlığa ümid edərək, inanırıq ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar bizim sərəncamımıza təqdim olunacaqdır.

Göstərilən xidmətlərin dəyəri "Cəfəroğlu Audit" MMC tərəfindən tətbiq ediləcək və auditin aparılması üçün tələb olunan müddətdən asılı olaraq müəyyən edilir. Ayrı-ayrı işlərin dəyəri auditorların tələb olunan ixtisas səviyyəsinə və iş təcrübəsinə, məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər.

Hesablaşmanın həyata keçirilməsi qaydası və müddəti auditin aparılmasına dair müqavilə ilə müəyyən ediləcəkdir.

Xahiş edirik ki, audit yoxlamasının aparılmasına razılıq haqqında məktub-öhdəliyin surətini imza edib, onun məzmununa dair irad və təkliflərinizi bizə göndərəsiniz.

Cəfəroğlu Audit" MMC-nin direktoru **Rzalı Səhla Tahir qızı**

25 aprel 2023-cü il

Mühasibat hesabatlarının dürüstlüyünün yoxlanılması ilə bağlı auditorun şərtləri ilə razıyam:

"Titan D" MMC-nin direktoru **Çaparlı Cəmil Kərim oğlu**

25 aprel 2023-cü il

"Titan D" MMC-nın (VÖEN 1700262831) 31.12.2022-ci il tarixinə bitən il üzrə Maliyyə Hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ dair HESABAT

Rəhbərliyin məsulyyəti haqqında hesabat, "Titan D" MMC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartların (MHBS) tələblərinə uyğun hazırlanması ilə bağlı rəhbərliyin məsuliyyətini müstəqil (kənar) auditorun məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik bildirir ki, başa çatan il üzrə Cəmiyyətin maliyyə vəziyyətini, əməliyyatlarını və həmin tarixə bitən il üzrə balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişikliklər barədə hesabatları düzgün əks etdirən və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) tələblərinə uyğun ilkin maliyyə hesabatlarının hazırlanması və təqdimatı üzrə məsuliyyət Cəmiyyətin rəhbərliyinin və onun işçi heyətinin üzərinə düşür.

Rəhbərlik həmçinin maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsində istifadə ediləcək maliyyə hesabatı çərçivəsinin müəyyən edilməsi üzrə məsuliyyət daşıyır. Eyni zamanda, rəhbərlik maliyyə hesabatlarının tətbiqə yararlı maliyyə hesabatı çərçivəsinə uyğun hazırlanması və təqdim edilməsi üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MMUS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyətin daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MMUS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə; və
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 31.12.2022-ci il tarixinə bitən il üzrə Maliyyə Hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə məsuliyyət hesabatı rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

Cəmiyyət tərəfindən:

"Titan D" MMC-nın direktoru **Çaparlı Cəmil Kərim oğlu**

Azərbaycan Respublikası
Bakı şəhəri
"Cəfəroğlu Audit" MMC
VÖEN 1903370371

Azerbaijan Republic
Baku City
"Cəfəroğlu Audit" LTD
İNN 1903370371

MÜSTƏQİL AUDİTORUN HESABATI

"Titan D" MMC-nın (VÖEN 1700262831) rəhbərliyinə

Rəy

Biz "Titan D" MMC-nın 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

Rəy üçün əsaslar

Biz auditimizi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"Cəfəroğlu Audit" MMC-nin direktoru — **Rzali Şəhla Tahir qızı**

30.12.2022-ci il tarixli SA/396 nömrəli icazənin sahibi auditor — **Rzayev Ramin Baxşəli oğlu**

Bakı şəhəri, Azərbaycan
02 avqust 2023-cü il

MÜQAVİLƏ № CA/01-04/22-M-20838

Audit xidməti göstərilməsi barədə

Bakı şəhəri **25 aprel 2023-cü il**

Nizamnaməyə uyğun fəaliyyət göstərən **"Titan D" MMC-nin (VÖEN 1700262831)** (bundan sonra "Sifarişçi" adlandırılacaq) direktoru Çaparlı Cəmil Kərim oğlunun şəxsində bir tərəfdən və öz Nizamnaməsi, eləcə də Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən Azərbaycan Respublikası ərazisində auditor fəaliyyətini həyata keçirməyə icazə verən 20 oktyabr 2022-ci il tarixdə verilmiş qeydiyyat nömrəsi AT/143 saylı "İcaze" əsasında fəaliyyət göstərən **"Cəfəroğlu Audit" MMC-nin (VÖEN 1903370371)** (bundan sonra "İcraçı" adlandırılacaq) direktoru Rzalı Şəhla Tahir qızının şəxsində digər tərəfdən, auditor xidməti göstərilməsi barədə bu müqaviləni aşağıdakı məzmunda bağladıq:

Maddə 1. Müqavilənin məzmunu

1.1. "İcraçı" "Sifarişçi"-nin **Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS)** tələblərinə uyğun tərtib edilmiş 01 yanvar 2022-ci il tarixdən 31 dekabr 2022-ci il tarixə qədər olan dövr üzrə maliyyə hesabatlarının (bundan sonra "Hesabat" adlanacaq) əhəmiyyətlilik baxımından dürüstlüyü barədə rəy bildirmək məqsədi ilə **Beynəlxalq Audit Standartlarına (BAS)** müvafiq audit yoxlamasını (bundan sonra "Audit" adlanacaq) aparacaq.

1.2. Auditin nəticəsi BAS tələblərinə müvafiq tərtib edilmiş auditor rəyindən və hesabatından ibarət olacaq.

Maddə 2. İşlərin yerinə yetirilməsi qaydası

2.1. Müqavilənin 1.1. bəndində nəzərdə tutulmuş audit BAS tələblərinə müvafiq aparılır.

Maddə 3. Tərəflərin hüquq və vəzifələri

3.1. "Sifarişçi" öhdəsinə götürür:

3.1.1. Müqavilənin 1.1.bəndində göstərilmiş auditin başlanmasına kimi hesabat ilinin sonuna balans maddələrinin inventarizasiyasının aparılması, bank idarələri və digər təşkilatlar ilə qarşılıqlı hesablaşmalar üzrə üzləşmələrin edilməsi daxil olmaqla illik mühasibat hesabatının tərtib edilməsi işlərinə hazırlıq üçün Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş bütün tələbləri yerinə yetirmək və bu haqda "İcraçı"-ya bu müqavilənin 13-cü maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə bildiriş göndərmək.

3.1.2. Auditin aparılması üçün lazım olan bütün sənədləşmələri, o cümlədən təsis və qeydiyyat sənədlərini,təsdiq edilmiş büdcəni, rəhbər orqanların müşavirələrinin protokollarını, planları, smetaları və auditin aparılması üçün zəruri olan digər məlumatları "İcraçı"-nın mütəxəssislərinə təqdim etmək.

3.1.3. "İcraçı"-nın mütəxəssislərinin sorğularına əsasən "Sifarişçi"-nin əməkdaşlarından yoxlamanın suallarına şifahi və yazılı izahatların tam və vaxtında verilməsini təmin etmək.

3.1.4. "İcraçı"-nın mütəxəssislərinin bu müqavilənin icrası ilə bağlı zəruri olan auditor hərəkətlərinin və prosedurlarının yerinə yetirilməsinə şərait yaratmaq, auditin aparılması ilə araşdırılan məsələlərin məhdudlaşdırılmasına yol verməmək.

3.1.5. İşlərin aparılması, sənədlərin saxlanması üçün sahə ayrılması daxil olmaqla auditin vaxtında və keyfiyyətli aparılması üçün, "İcraçı"-nın mütəxəssislərinə lazımı şərait yaratmaq, həmçinin audit aparmaqla əlaqəli "İcraçı"-nın əməkdaşları ezamiyyətdə olduqda, onları normal məişət şəraiti ilə təmin etmək .

3.1.6. "İcraçı"-nın təqdim etdiyi hesab-fakturanı tam həcmdə və vaxtı-vaxtında ödəmək.

3.2. "Sifarişçi"-nin hüququ vardır:

3.2.1. "İcraçı"-dan auditin aparılmasına aid qanunvericilik tələbləri haqda, həmçinin "İcraçı"-nın irad və nəticələrinin əsaslandığı normativ aktlar haqda məlumat almaq.

3.3. "İcraçı" öhdəsinə götürür:

3.3 1. "Sifarişçi"-nin təqdim etdiyi sənədlər və məlumatlar əsasında Azərbaycan Respublikasının qüvvədə olan qanunlarını əldə rəhbər tutaraq və Beynəlxalq Audit Standartlarına müvafiq keyfiyyətli və səriştəli audit aparmaq.

3.3.2. Audit aparılması gedişatında "Sifarişçi"-nin təqdim etdiyi sənədlərin qorunub saxlanmasını təmin etmək.

3.3.3. "İcraçı" Azərbaycan Respublikasının qanunvericiliyində birbaşa nəzərdə tutulan hallar istisna edilməklə sənədlərin məzmununu şifahi və yazılı şəkildə üçüncü şəxsə açıqlamayacaq .

3.3.4. "Sifarişçi"-nin sorğusu üzrə "İcraçı" auditin aparılmasına aid qanunvericilik tələbləri haqda, həmçinin "İcraçı"-nın irad və nəticələrinin əsaslandığı normativ aktlar haqda məlumatları təqdim etmək .

3.3.5. Audit başa çatdıqdan sonra "Sifarişçi"-yə BAS müvafiq tərtib olunmuş auditor rəyi təqdim etmək.

3.4.1. Auditin aparılmasının seçmə qaydasını və əhəmiyyətlilik prinsiplərini nəzərdə tutan forma və metodunu sərbəst müəyyənləşdirmək.

3.4.2. "Sifarişçi"-nin maliyyə təsərrüfat fəaliyyəti, pul vəsaitlərinin, qiymətli kağızlarının, maddi-qiymətlilərin mövcudluğu barədə auditor sübutları toplamaq məqsədilə sənədləri yoxlamaq, zəruri auditor prosedurlarını yerinə yetirmək, auditin keçirilməsi üçün zəruri olan məlumatların əldə edilməsi üçün "Sifarişçi"-nin əməkdaşlarından yazılı və şifahi izahatlar almaq.

3.4.3. Üçüncü şəxslərdən audit yoxlamasının aparılması üçün zəruri olan məlumatları almaq.

3.4.4. "Sifarişçi"-nin razılığı ilə auditor rəyinin forlaşdırılması üçün zəruri olan "Sifarişçi"-nin sənədlərinin surətinin çıxarmaq.

Maddə 4. İşlərin təhvil verilmə qaydası

4.1. Auditor hesabatı təhvil-qəbul aktı ilə birlikdə əlbəəl "Sifarişçi"-nin səlahiyyətli nümayəndəsinə verilir və ya kuryer və yaxud rabitə vasitələri ilə "İcraçı"-nın müşayiət məktubu ilə "Sifarişçi"-yə göndərilir.

4.2. İşlərin görülməsinin başa çatması tarixi bu müqavilənin 4.1. bəndində nəzərdə tutulduğu qaydada auditor rəyinin "Sifarişçi"-yə təqdim edilməsi tarixi hesab olunur.

Maddə 5. İşlərin yerinə yetirilməsi müddəti

5.1. Bu müqavilədə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi müddəti 2022-ci il 20 avqust tarixinə qədər müəyyən edilir.

5.2. Bu müqavilədə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi müddəti "Sifarişçi"-nin təqsiri üzündən yubadıldıqda, işlərin başa çatdırılması vaxtı yubadılmış müddət qədər avtomatik olaraq artırılır.

Maddə 6. Müqavilə üzrə hesablaşmalar və ödənişlər

6.1. Bu müqavilədə nəzərdə tutulmuş işlərin dəyəri 12500 (on iki min beş yüz) manat məbləğində müəyyən edilir.

6.2. Bu müqavilədə nəzərdə tutulmuş işlərin dəyəri bərabər məbləğlərdə "Sifarişçi" tərəfindən "İcraçı"-nın təqdim etdiyi qaimə-fakturaya əsasən ödənilir.

6.3. Bu müqavilədə nəzərdə tutulmuş qaimə-fakturalar "İcraçı" tərəfindən təqdim edildikdən conra 5 bank günü ərzində "Sifarişçi" tərəfindən ödənilməlidir.

Maddə 7. Məxfilik

7.1. Tərəflər bağlanmış müqavilənin mövcudluğu, məzmunu və müqavilənin bağlanması üçün zəruri olan sənədləri məxfi saxlamaqla, tərəf müqabilinin rəsmi razılığı olmadan üçüncü tərəfə heç bir məlumat vermir.

7.2. Bu müqavilənin qüvvədə olduğu müddət ərzində və ondan sonrakı dövrdə Tərəflərin qarşılıqlı yazılı razılığı olmadan bu müqavilədəki öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü tərəflərə heç bir məlumat açıqlana bilməz.

7.3. Bu maddənin məqsədləri üçün "məlumat" məhdudiyyətsiz olaraq, aşağıdakıları əks etdirir: Bu müqavilənin şərtləri barədə məlumat, həmçinin onların yerinə yetirilməsinin forma və metodları; Bu müqavilədəki tərəflərdən birinin vəziyyəti və əmlakı barədə məlumatlar.

7.4. Məxfilik barədə yuxarıda qeyd olunanlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan hallarda və qaydada belə informasiyanın dövlət hakimiyyət orqanlarına verilməsinə aid edilmir.

7.5. Bu müqavilə ilə tərəflər arasında razılaşdırılmış məxfilik öhdəliklərinə kütləvi informasiya vasitələrindən əldə edilmiş informasiya aid edilmir.

Maddə 8. Tərəflərin öhdəlikləri

8.1. Bu müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya tam yerinə yetirilməməsinə görə "Sifarişçi" və "İcraçı" mövcud qanunvericilik və bu müqavilənin şərtlərinə görə əmlak məsuliyyəti daşıyırlar.

8.2. "İcraçı" auditi ancaq və ancaq audit dövründə ona təqdim olunmuş sənədlər və digər məlumatlar əsasında aparır. Bu sənədlərin keyfiyyətinə və onlarda əks olunmuş məlumatların düzgünlüyünə bu sənədləri tərtib etmiş və imzalamış şəxslər məsuliyyət daşıyırlar.

8.3. Auditin planlaşdırılması və aparılması prosesində "İcraçı" audit prosedurlarını təyin etmək üçün "Sifarişçi"- nin daxili nəzarət strukturuna baxacaqdır ki, bu da "Sifarişçi"-nin daxili nəzarət strukturuna təminat vermək məqsədi deyil, onun maliyyə hesabatlarına təsiri barədə fikir bildirmək məqsədi güdür.

8.4. Tərəflərin hər hansı iddia və ya tələbləri üzrə məsuliyyəti müqavilənin şərtləri ilə nəzərdə tutulmuş, alınmış və ya alınacaq məbləğlər ilə məhdudlaşır.

Maddə 9. Məsuliyyətdən azad olma

9.1. Tərəflər, bu müqavilə bağlandıqdan sonra bu müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qədər yerinə yetirilməməsinə görə yalnız o halda məsuliyyət daşımırlar ki, bu yerinə yetirilməmə və ya tam yerinə yetirilməmə hər hansı fövqəladə hadisələrin nəticəsi kimi meydana çıxmış olsun və tərəflər bu hadisələrin gedişinə heç bir təsir etmək iqtidarında olmasınlar.

9.2. Fövqəladə hadisələr dedikdə, elə hadisələr nəzərdə tutulur ki, tərəflər bu hadisələrə təsir göstərə bilmirlər və onların əmələ gəlməsinə məsuliyyət daşımırlar. Məsələn, zəlzələlər, daşqınlar, fırtınalar və başqa təbii fəlakətlər, yanğınlar, qəzalar, tətillər, müharibələr, hərbi əməliyyatlar, həmçinin dövlət, hakimiyyət orqanlarının qərar və sərəncamları.

9.3. Tərəflər bu cür halların əmələ gəlməsi barədə o biri tərəfə 3 iş günü müddətində yazılı surətdə xəbərdarlıq etməyə borcludur. Xəbərdarlıqda bu hadisələrin xarakteri və əgər mümkündürsə, müqavilədə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi müddətinə təsiri şərh edilməlidir.

9.4. Tərəflər göstərilən hadisələrin başa çatması ilə o biri tərəfi dərhal yazılı surətdə xəbərdar etməlidir və öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan müddəti bildirməlidir.

9.5. Əgər fövqəladə hadisələrin əmələ gəlməsi barədə hər hansı tərəf o biri tərəfə xəbərdarlıq etmişdirsə, müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi fövqəladə hadisələrin davam etməsi müddəti qədər uzadılır.

9.6. Əgər fövqəladə hadisələr tərəflərin hər hansına öz öhdəliklərini yerinə yetirməsinə 3 ay müddətində əməl etməyə imkan vermirsə və ya bu hadisələr 3 aydan artıq davam edərsə, tərəflər qarşılıqlı öhdəlikləri yerinə yetirmək üçün danışıqlar apara bilərlər və ya müqavilənin dayandırılması barədə qərar qəbul edə bilərlər.

Maddə 10. Mübahisələrin həll olunması qaydası

10.1. Bu müqavilənin maddələrinin müddəalarının anlaşılması, fəaliyyəti və ya yerinə yetirilməsi üzrə tərəflər arasında bütün mübahisələr tərəflər arasında danışıqlar vasitəsi ilə həll olunur.

10.2. Tərəflər arasında meydana çıxmış mübahisələr, digər tərəfdən bu mübahisənin həll olunması barədə təklif alınmasından iki ay müddətinə aradan qaldırılmazsa, mübahisələr mövcud qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikasının İqtisad məhkəməsində həll edilməlidir.

10.3. Tərəflər razılığa gəlirlər ki, bu müqavilənin müddəalarının şərh olunmasında, fəaliyyətində və yerinə yetirilməsində əmələ gələn mübahisələrin həllində Azərbaycan Respublikasının Mülki hüquq normaları istifadə olunur.

Maddə 11. Müqavilənin qüvvədə olma və ləğv olunması şərtləri

11.1. Bu müqavilənin qüvvədə olması müddəti 2022-ci ilin maliyyə hesabatlarının auditi ilə məhdudlaşır və tərəflərin bu müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərinin tam yerinə yetirilməsi ilə başa çatır.

11.2. Müqavilə aşağıdakı hallarda ləğv oluna bilər:

11.2.1. Bu müqavilənin 13-cü maddəsinin şərtlərinə uyğun olaraq, tərəflərin qarşılıqlı razılığı ilə yazılı surətdə.

11.2.2. Tərəflərdən birinin təsərrüfat fəaliyyətinin dayandırılması və ya işgüzar əməliyyatlarının dayandırılması təhlükəsi əmələ gəldikdə (ödəniş qabiliyyəti olmadıqda, müflisləşmə, ləğv olunma baş verdikdə).

11.3. Tərəflərdən hər biri bu müqaviləni, o biri tərəf öz öhdəliklərini yazılı xəbərdarlıqdan sonra üç gün müddətində yerinə yetirmək üçün heç bir tədbir görmədiyi halda, dayandırmaq hüququna malikdirlər.

11.4. Bu müqavilənin 11.2 və 11.3.-cü maddələrinə müvafiq olaraq müqavilə ləğv olunduqda, faktiki görülmüş işlərin dəyəri "İcraçı" tərəfindən mütəxəssislərin auditə sərf etdikləri vaxta müvafiq olaraq tərtib olunmuş hesabat əlavə edilmiş hesaba əsasən ödənilməlidir.

Maddə 12. Digər şərtlər

12.1. "İcraçı" bu müqavilənin 1-ci maddəsində nəzərdə tutulmuş işləri yerinə yetirmək üçün mütəxəssisləri öz istəyinə uyğun seçir.

12.2. "İcraçı"-nın mütəxəssislərinin vaxtamuzd tariflərlə işi bu cür və ya buna oxşar müqavilənin gələcəkdə bağlanmasında nümunə və ya rəqabət materialı kimi istifadə oluna bilməz.

Maddə 13. Bildiriş

13.1. Bu müqavilədə nəzərdə tutulmuş bütün bildirişlər və məlumatlar yazılı şəkildə göndərilməlidir. Hər hansı Tərəfin digərinə göndərdiyi istənilən bildiriş o halda hüquqi qüvvəyə malikdir ki, o, tərəflərin müqavilədə qeyd edilmiş ünvanlarına şəxsən və ya təqdim edilməsi barədə qəbzlə birlikdə sifarişli məktub kimi göndərilsin. Yalnız o halda bildiriş göndərilmiş və ünvanına çatmış hesab edilə bilər. Bildirişin göndərilməsi və ünvanına çatması vaxtı isə aşağıdakı qaydalarda müəyyn edilir:

✓ şəxsən təqdim etdikdə - alınma tarixində;

✓ sifarişli poçt xidməti ilə göndərildikdə - göndərilməyə qəbul olunma barədə qəbzdə göstərilən tarixdən 10 gün sonra.

13.2. Bu müqavilənin məqsədləri üçün tərəflərin hüquqi ünvanları (bu maddənin qaydasına riayət etməklə, onların dəyişməsi haqqında bildirişlərin alınmasına qədər) aşağıdakılardır:

"Sifarişçi": "Titan D" MMC (VÖEN 1700262831), Bakı şəhəri, H.Hacıyev küşəsi, ev 3, mənzil 3

"İcraçı": "Cəfəroğlu Audit" MMC (VÖEN 1903370371), AZ 1008, Bakı şəhəri, Suraxanı rayonu, Zığ ŞTQ, Zığ yolu küçəsi, ev 22V, mənzil 4 Tel: + 994 (050) 2103628

Maddə 14. Yekun müddəalar

14.1. Bu müqaviləyə bütün əlavələr və düzəlişlər yalnız o halda qüvvədə sayılır ki, onlar yazılı şəkildə həyata keçirilmişlər və tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imza edilmişlər.

14.2. Bu müqavilə tərəflər arasında bütün razılaşmaları əhatə edir.Müqavilənin qüvvəyə minməsindən sonra bu müqavilənin bağlanmasına qədər istifadə edilmiş bütün şifahi və yazılı razılaşmalar öz qüvvəsini itirmiş hesab olunur.

14.3. Əgər bu müqavilənin hər hansı maddələri etibarsız sayılarsa, belə halda bu müqavilənin tam qüvvədə olan başqa maddələrinə şamil edilmir.

Maddə 15. Müqavilənin qüvvəyə minməsi

15.1. Müqavilə tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imza edildiyi tarixdən qüvvəyə minir.

15.2. Müqavilə Bakı şəhərində, tərəflərin hər birinə bir nüsxə olmaqla, eyni qüvvəyə malik olan iki nüsxədən ibarət tərtib edilmiş və imzalanmışdır.

Maddə 16. Tərəflərin bank rekvizitləri

"İcraçı":	**"Sifarişçi":**
"Cəfəroğlu Audit" MMC	**"Titan D" MMC**
VÖEN 1903370371	**VÖEN** 1700262831
BANK Kapital Bank ASC Əhmədli filialı	**BANK** ABB, Səbail filialı
KOD 200101	**KOD** 805056
VÖEN 9900003611	**VÖEN** 9900001881
M/H AZ37NABZ01350100000000001944	**M/H** AZ03NABZ01350100000000002944
H/H AZ37AIIB40060019440282918110	**H/H** AZ48IBAZ40060019449384201209
SWİFT BİK AIIBAZ2X	**SWİFT BİK** IBAZAZ2X
Direktor Rzalı Səhla Tahir qızı	**Direktor** Çaparlı Cəmil Kərim oğlu

AZERBAYCAN RESPUBLİKASI CƏFƏROĞLU AUDIT MMC VÖEN 1903370371 BAKU AZERBAIJAN REPUBLIC

Azerbaycan Respublikası "TITAN D" MMC Azerbaijan Republic

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
VÖEN: 1700262831
2022-ci il üzrə
Müəssisə: "TİTAN-D" MMC

manat

Bölmə/ maddə	AKTİVLƏR	Uçot siyasəti və izahlı qeydlərin №-si	2022	2021
I. Uzunmüddətli aktivlər				
10	Qeyri-maddi aktivlər			
11	Torpaq, tikili və avadanlıqlar	6	615 753,00	669 443,00
12	Daşınmaz əmlaka investisiyalar			
13	Bioloji aktivlər			
14	Təbii sərvətlər			
15	İştirak payı metodu il uçota alınmış investisiyalar			
16	Taxirə salınmış vergi aktivləri			
17	Uzunmüddətli debitor borcları			
18	Sair uzunmüddətli maliyyə aktivləri			
19	Sair uzunmüddətli aktivlər			
Cəmi uzunmüddətli aktivlər			**615 753,00**	**669 443,00**
II. Qısamüddətli aktivlər				
20	Ehtiyatlar			
21	Qısamüddətli debitor borcları	7	679 811,00	529 893,00
22	Pul vəsaitləri və onların ekvivalentləri	8	959 754,10	1 285 981,00
23	Sair qısamüddətli maliyyə aktivləri			
24	Sair qısamüddətli aktivlər			
Cəmi qısamüddətli aktivlər			**1 639 565,10**	**1 815 874,00**
Cəmi aktivlər			**2 255 318,10**	**2 485 317,00**

Bölmə maddəsi	KAPİTAL VƏ ÖHDƏLİKLƏR	Uçot siyasəti və izahlı qeydlərin №-si	2022	2021
III. Kapital				
30	Ödənilmiş nominal (nizamnamə) kapital			
31	Emissiya gəliri			
32	Geri alınmış kapital (səhmlər)			
33	Kapital ehtiyatları			
34	Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	9		626 300,00
Cəmi kapital				**626 300,00**
IV. Uzunmüddətli öhdəliklər				
40	Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər			
41	Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər			
42	Taxirə salınmış vergi öhdəlikləri			
43	Uzunmüddətli kreditor borcları			
44	Sair uzunmüddətli öhdəliklər			
Cəmi uzunmüddətli öhdəliklər				
V. Qısamüddətli öhdəliklər				
50	Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər			
51	Qısamüddətli qiymətləndirilmiş öhdəliklər			
52	Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər			
53	Qısamüddətli kreditor borcları			
54	Sair qısamüddətli öhdəliklər	10	2 255 318,10	1 859 017,00
Cəmi qısamüddətli öhdəliklər			**2 255 318,10**	**1 859 017,00**
Cəmi öhdəliklər			**2 255 318,10**	**1 859 017,00**
Cəmi kapital və öhdəliklər			**2 255 318,10**	**2 485 317,00**

Rəhbər _____ (imza) **C.K.ÇAPARLI** (a.s.a.a.)

Baş mühasib _____ (imza) **R.T.BABAYEV** (a.s.a.a.)

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
VÖEN: 1700262831
2022-ci il üzrə
Müəssisə: "TİTAN-D" MMC

manat

Bölümə /maddə		Uçot siyasəti və izahlı qeydlərin №-si	2022	2021
60	Əsas əməliyyat gəliri	*11*	9 345 371,00	9 059 384,99
70	Satışın maya dəyəri	*12*	-8 421 757,55	-8 334 377,62
	Ümumi Mənfəət		**923 613,45**	**725 007,37**
61	Sair əməliyyat gəlirləri	*11*	55 121,00	10 204,64
71	Kommersiya xərcləri			
72	İnzibati xərclər	*13*	-144 173,96	-180 789,32
73	Sair əməliyyat xərcləri	*14*	-6 408,12	-5 745,58
62 və 74	Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər)			
	Əməliyyat mənfəəti (zərəri)	*15*	**828 152,37**	**548 677,11**
63 və 75	Maliyyə mənfəəti (zərəri)			
81	Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay			
	Vergiqoyulmadan əvvəl mənfəət (zərər)		**828 152,37**	**548 677,11**
90	**Mənfəət vergisi**	*16*	165 630,47	109 735,42
	Adi fəaliyyətdən mənfəət (zərər)			
64 və 76	Fövqəladə mənfəət (zərər)			
80	**Hesabat dövründə xalis mənfəət (zərər)**	*17*	**662 521,90**	**438 941,69**
	Bazis hər bir səhmin mənfəəti			
	Qatılmış hər bir səhmin mənfəəti			

Rəhbər _____ **C.K.ÇAPARLI** **Baş mühasib** _____ **R.T.BABAYEV**
(imza) (a.s.a.a.) (imza) (a.s.a.a.)

PUL VƏSAITLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
VÖEN: 1700262831
2022-ci il üzrə

Müəssisə: "TİTAN-D" MMC

manat

Bölmə		Qeydlərə istinad	2022	2021
1	**Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti**			
	Hesabat dövründə xalis mənfəət və ya zərər		662 521,90	438 941,69
	Aşağıdakı maddələr üzrə düzəlişlər:			
	azlıq təşkil edən mülkiyyətçilərin payı			
	mənfəət vergisi üzrə xərclər			
	amortizasiya xərcləri		92 672,00	109 735,00
	investisiya fəaliyyəti ilə əlaqədar zərər (mənfəət)			
	maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər xərclər (gəlirlər)			
	Məzənnə fərqi üzrə xərclər (gəlirlər)			
	Faiz xərcləri (gəlirləri)			
	Şübhəli debitor borcları üzrə xərclər			
	İddia müddəti ötmüş kreditor borclar üzrə gəlirlər			
	Sair qeyri-pul əməliyyatları üzrə xərclər (gəlirlər)			
2	**Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri**		**755 193,90**	**548 676,69**
	Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:			
	Ehtiyatların azalması (artması)		0,00	0,00
	əməliyyat debitor borclarının azalması (artması)		-149 918,00	-302 036,00
	sair qısamüddətli aktivlərin azalması (artması)		0,00	0,00
	vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması)		0,00	0,00
	əməliyyat kreditor borclarının artması (azalması)		0,00	0,00
	Sair qısamüddətli öhdəliklərin artması (azalması)		396 301,10	1 468 309,00
	Ödənilmiş (qaytarılmış) mənfəət vergisi		-165 630,47	-109 735,42
	Ödənilmiş faizlər			
	Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin daxilolmaları və xaricolmaları		-496 891,42	-367 608,27
3	**Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti (1+2)**		**339 055,10**	**1 237 606,00**
4	**İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri**			
	Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları			
	Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları		**-38 982,00**	**-20 228,00**
	digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla);			
	digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla);			
	digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları;			
	digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları;			
	İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları.			

5	**İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti**		**-38 982,00**	**-52 542,00**
6	**Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti**			
	səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları			
	müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları			
	təminatsız istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları:			
	borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları			
	məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları			
	məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları			
	maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları			
	dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları		-626 300,00	
	faizlər şəklində pul vəsaitlərinin xaricolmaları			
	Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları			
7	**Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti**		**-626 300,00**	**0,00**
8	**Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) (3+5+7)**		**-326 226,90**	**1 185 064,00**
9	**bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği**		**1 285 981,00**	**100 917,00**
10	**bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı**		**959 754,10**	**1 285 981,00**

Rəhbər **C.K.ÇAPARLI**
(a.s.a.a.)

Baş mühasib **R.T.BABAYEV**
(a.s.a.a.)

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
VÖEN: 1700262831
2022-ci il üzrə

Müəssisə: "TİTAN-D" MMC

manat

	Uçot siyasəti və izahlı qeydlərin №-si	Ödənilmiş nizamnamə kapitalı	Emis-siya gəliri	Geri alınmış kapital (səhmlər)	Bölüşdürül-məmiş mənfəət (ödənilməmiş zərər)	CƏMİ
1/1/2022-ci il tarixinə qalıq					**626 300,00**	**626 300,00**
Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər						
1/1/2022-ci il tarixinə düzəlişlərdən sonra qalıq						
Aktivlərin yenidən qiymətləndirilməsi						
Məzənnə fərqləri						
Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər						
Hesabat dövründə xalis mənfəət (zərər)					662521,90	662521,90
Mülkiyyətçilərin kapital qoyuluşları						
Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividentlər)						
Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar						
Kapitalın maddələr arasında köçürülmələr					-1288821,9	-1288821,90
31/12/2022-ci il tarixinə qalıq						
2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi						

Rəhbər : **C.K.ÇAPARLI**
adı, soyadı

Baş mühasib : **R.T.BABAYEV**
adı, soyadı

Maliyyə hesabatlarına şərhlər və qeydlər.

1. Giriş

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 20 oktyabr 2020-ci il tarixli AT/143 qeydiyyat nömrəli və 30 dekabr 2022-ci il tarixli SA/396 icazələr əsasında fəaliyyət göstərən "Cəfəroğlu Audit" MMC-nin (VÖEN 1303370371) direktoru Rzalı Şəhla Tahir qızı ilə, "Titan-D" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 0200015271) direktoru Çaparlı Cəmil Kərim oğlu arasında (bundan sonra "Cəmiyyət" adlanacaq) bağlanmış 25 aprel 2023-cü il tarixli CA/01-04/22-M-20838 nömrəli müqaviləyə əsasən Cəmiyyətin 01 yanvar 2022-ci il tarixdən, 31 dekabr 2022-ci il tarixədək olan dövrün maliyyə təsərrüfat fəaliyyətini əks etdirən balans maliyyə hesabatlarının auditini apardıq.

Auditin əhatə etdiyi dövrdə Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdeh olmuşlar:

1. "Titan-D" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru C.K.Çaparlı– yoxlanılan bütün dövr ərzində.

2. "Titan-D" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş mühasibi R.T.Babayev - yoxlanılan bütün dövr ərzində.

Hazırkı maliyyə hesabatları 31 dekabr 2022-cu ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq "Titan-D" MMC üçün tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında yaradılmışdır və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış təşkilatıdır.

CƏMİYYƏT HAQQINDA MƏLUMAT

Hüquqi şəxs Azərbaycan Respublikası Prezidentinin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə Azərbaycan Respublikası Naxşıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində 06.05.1997-ci il tarixdə qeydiyyatdan keçərək ona 1700262831 nömrəli Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN) verilmişdir.

Cəmiyyət öz nizamnaməsinə uyğun olaraq Təhlükəsizlik fəaliyyəti ilə məşqul olmaqla yanaşı qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət növləri ilə məşğul olmaqdır.

Cəmiyyətin hüquqi ünvanı:

Azərbaycan Respublikası, Bakı şəhəri , AZ1000, H.Hacıyev 3 , m3

Cəmiyyətin faktiki fəaliyyət göstərdiyi ünvan:

Azərbaycan Respublikası, Bakı şəhəri , Babək prospekti 10/11, Babək plaza 5-ci mərtəbə

Əməliyyat valyutası

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

2. Cəmiyyətin əməliyyat mühiti

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkədə güclü iqtisadi artım müşahidə olunmuşdur. Lakin hal-hazırda dünya iqtisadiyyatında mövcud olan qlobal maliyyə böhranı Azərbaycana da öz təsirini göstərməkdədir. Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Cəmiyyətin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının səmərəliliyindən, eləcə də vergi, sosial sığorta, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

3. Uçot siyasətinin təqdimatı

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

3.1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

"Titan-D" MMC mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericilik aktları əsasında hazırlanmış və KTÜMMUS-na uyğunlaşdırılmışdır. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir. Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

Maliyyə hesabatlarının KTÜMMUS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Cəmiyyətin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələri açıqlasın.

3.2. Valyutaların yenidən hesablanması

(a) Funksional valyuta və hesabat valyutası
Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu Cəmiyyətin yerli valyutası olan Azərbaycan manatıdır (AZN).

(b) Əməliyyatlar və qalıqlar
Xarici valyuta ilə aparılan əməliyyatlar onların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri

öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

3.3. Binalar və avadanlıqlar (Əsas vəsaitlər)

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:
(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən inzibati bina və ofis sahələri daxildir. Hesabat dövrünün sonuna torpaq və binalar bazar qiymətlərinə müvafiq surətdə ədalətli dəyər üzrə yenudən qiymətləndirilməmişdir.

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər - bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan dütün cari təmir və istismar xəcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı həddləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat (rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

3.4. Amortizasiya

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- Binalar – 40 il və ya illik 7%
- Maşın və avadanlıqlar – 5 il və ya illik 25%
- İT avadanlıqları – 5 il və ya illik 25%
- Nəqliyyat vasitələri – 5 il və ya illik 25%
- Mebel və təsərrüfat inventarları – 5 il və ya illik 20%
- Sair əsas vəsaitlər – 5 il və ya illik 20%

Aktivlərin ləğvedilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

3.5. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər - fiziki əsası olmayan, lakin sahibkarın imtiyazı və hüququ əsasında dəyər yaradan dövriyyədənkənar aktivlərdir. Cəmiyyətin qeri-maddı aktivi yoxdur.

3.6. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyərinin olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivlərin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyər;

(b) Istifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

3.7. İnvestisiyalar

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- Borc vəsaitləri və debitor borcları,
- İnvestisiyalar;
- Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

(a) Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınmış ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

(b) Borc vəsaitləri və debitor borcları

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müddəti mühasibat balansının tərtib

edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişlər.

(c) *Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*

Ödəmə müdətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

(d) *Satış üçün nəzərdə tutulmuş maiyyə aktivləri*

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tətib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

3.8. Ehtiyatlar

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

3.9. Alıcılar və sifarişçilərin debitor borcları

Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervləri) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervlərin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyər arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

3.10. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksək likvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

3.11. Təsisçi kapital

Təsisçi payı kapital kimi təsnifləşdirilir.

3.12. Kreditlər və borclar

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada

ləğv olunma müddətinə və istiqrazların ödənmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekti çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətinədək ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olaması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

3.13. Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respunlikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

3.14. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar (rezervlər) o zaman yaradılır ki:

- Cəmiyyət keşmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;
- Ehtimallar vardır ki, bu öhdəliklərin səhmana salınması üçün pul vəsaitlərinin axını labüddür;
- Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Restrukturizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

3.15. Gəlirin tanınması

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

(a) Xidmətlərin göstərilməsindən gəlirlər

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və

xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

(b) Faiz gəlirləri

Faiz gəlirləri faktiki əldə edildiyi dövrdə gəlir kimi tanınır.

(c) Dividend gəlirləri

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

3.16. İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

3.17. Dividendlərin verilməsi

Cəmiyyətin təsisçilərinə dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətin təsisçiləri tərəfindən təsdiq edilmişdir (qərar qəbul edilmişdir).

Hesabat dövründə Cəmiyyətin təsisçilərinə dividendlər elan edilməmiş və ödənilməmişdir.

4. Maliyyə risklərinin idarə edilməsi

4.1. Maliyyə riskərinin faktorları

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Cəmiyyətin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Cəmiyyət müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

(a) Bazar riski

(i) Valyuta riski

Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də, xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, avro, Rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyillidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübadilə kurslarının dəyişməsi riski mövcuddur.

(ii) Qiymət riski

Cəmiyyət göstərdiyi xidmətlər üzrə qiymət riskinə mübtəla deyildir. Analoji xidmətlər bazarında faktiki rəqabətin olmaması buna əsas verir.

(b) Kredit riski

Cəmiyyət əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Cəmiyyət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

(c) Likvidlik riski

Likvidlik riskinin ehtiyatlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət qədər həcminin saxlanmasını, açılmış kredit xəttləri vasitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarətmə imkanlarını nəzərdə tutur.

(d) Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski

Cəmiyyət faiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olduğundan, mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

4.2. Törəmə maliyyə alətləri və hedcinq əməliyyatlrı

Törəmə maliyyə alətləri müvafiq sövdələşmələrin (kontraktların) bağlanma tarixinə ilkin balans dəyəri ilə uçota alınır: sonradan ədalətli dəyərə yenidən qiymətləndirmə tələb edilir. Bu qaydada müəyyən edilmiş gəlirlər və zərərlər maliyyə alətlərinin hedcinq aləti kimi təsnifləşdirilməsindən asılıdır.

(a) Ədalətli dəyərin hedcinqləşdirilməsi

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda hedcinqləşmə riskinə aid olan hedcinqləşdirilən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərinin dəyişməsi ilə birliklə əks etdirilir.

(b) Pul vəsaitləri axınının hedcinqləşdirilməsi

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsinin effektiv hissəsi kapitalın tərkibində tanınır (bu dəyişmənin effektiv olmayan hissəsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir).

(c) Xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu tətbiq edilməyən törəmə alətlər

Bir sıra maliyyə alətləri xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu qaydalarına aid edilmir. Hedcinqləşdirmə əməliyyataları tətbiq edilməyən maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsi birbaşa mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri

Cəmiyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

5.1. Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

5.2. Binaların yenidən qiymətləndirilməsi

Cəmiyyətin balansında olan daşınmaz əmlak üçün yenidən qiymətləndirilmə aparılmamışdır.

5.3. Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

6. Əsas vəsaitlər

	Binalar	Maşın və avadanlıq	Nəqliyyat vasitələri	Digər əsas vəsaitlər	Cəmi
01 yanvar 2022-ci il tarixinə ilkin dəyər					
Yığılmış amortizasiya					
01 yanvar 2022-ci il tarixinə balans dəyəri	**365584**	**55757**	**132102**	**116000**	669443
Daxilolmalar		**4853**	**34129**		38982
Xaricolmalar					
Amortizasiya ayırmaları	**25591**	**11856**	**32025**	**23200**	92672
Xaricolmalar üzrə yığılmış amortizasiya					
31 dekabr 2022-ci il tarixinə balans dəyəri	**339993**	**48754**	**134206**	**92800**	**615753**
31 dekabr 2022-ci il tarixinə ilkin dəyər					
Yığılmış amortizasiya					
31 dekabr 2022-ci il tarixinə balans dəyəri	**339993**	**48754**	**134206**	**92800**	**615753**

Əsas vəsaitlərin 31 dekabr 2022-ci il tarixə balans dəyəri 615753,00 manat təşkil etmiş, 31 dekabr 2021-ci il tarixinə təsərrüfat fəaliyyətinin yekunu ilə müqayisədə 53690,00 manat azalmışdır.

7. Qısamüddətli debitor borcları

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları	679811,00	529893,00	149918,00	28,292%
Büdcəyə qısamüddətli debitor borcları				
Müxtəlif debitor və kreditorlarla hesablaşmalar üzrə debitor borcları				
Dövlət Sosial Müdafiə Fonduna				
Cəmi:	**96459,00**	**529893,00**	**-433434,00**	**-81,797**

Debitor borclar 31 dekabr 2022-ci il tarixə 679811,00 manat təşkil etmiş, 31 dekabr 2021-ci il tarixinə təsərrüfat fəaliyyətinin yekunu ilə müqayisədə 149918,00 manat həmçinin təqribən 28,3% artmışdır.

8. Pul vəsaitləri və onların ekvivalentləri

	2022	2021
Bank hesablarında pul vəsaitlərindən:		
• Milli valyutada bank hesabları	959754,10	1285981,00
• Xarici valyutalarda bank hesabları		

9. Bölüşdürülməmiş Mənfəət(Zərər)

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Bölüşdürülməmiş Mənfəət (ödənilməmiş zərər)		626300,00	-626300,00	-100,00%

Bölüşdürülməmiş mənfəət 31 dekabr 2022-ci il tarixə 0,00 manat təşkil etmiş, 31 dekabr 2021-ci il tarixinə təsərrüfat fəaliyyətinin yekunu ilə müqayisədə 626300,00 manat həmçinin 100% azalmışdır. Azalmanın səbəbi təyin olunması tələb olunur.

10. Sair qısamüddətli öhdəliklər

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Gələcək hesabat dövrünün gəlirləri	2255318,10	1859017,00	396301,10	21,32
Alınmış qısamüddətli avanslar				
Digər qısamüddətli öhdəliklər				
Cəmi:	**2255318,10**	**1859017,00**	**396301,10**	**21,318**

Sair qısamüddətli öhdəliklər 31 dekabr 2022-ci il tarixə 2255318,10 manat təşkil etmiş, 31 dekabr 2021-ci il tarixinə təsərrüfat fəaliyyətinin yekunu ilə müqayisədə 396301,10 manat həmçinin təqribən 21,31% artmışdır.

11. Satış

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Əsas fəaliyyət üzrə gəlirlər	9345371,00	9059384,99	285986,01	
Sair əməliyyat gəlirləri	55121,00	10204,64	44916,36	
Cəmi gəlirlər	**9400492,00**	**9069589,63**	**330902,37**	**3,6485**

Satış 31 dekabr 2022-ci il tarixə 9400492,00 manat təşkil etmiş, 31 dekabr 2021-ci il tarixinə təsərrüfat fəaliyyətinin yekunu ilə müqayisədə 330902,37 manat həmçinin təqribən 3,64% *artmışdır.*

12. Satışın maya dəyərinin elementləri

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Satışın maya dəyəri	8421757,55	8334377,62	87379,93	1,05%
o cümlədən				
Əmək haqqı	5532813,00	5383969,00	148844,00	
Sosial sığorta haqqı	1332443,15	1321090,00	11353,15	
Malın dəyəri	50110,30	4148,00	45962,30	
Enerji xərcləri	1206,11	1200,00	6,11	
İcarə haqqı	25241,50	39147,50	-13906,00	
Ezamiyyə xərcləri	2480,00	845,00	1635,00	
Qaz xərcləri	1519,06	1515,22	3,84	
Yanacaq xərci	71119,67	63018,54	8101,13	
Mühafizə xərcləri	135974,88	80680,36	55294,52	
Sair xərclər	946377,88	1181491,00	-235113,12	
Nəqliyyat xərcləri	223195,00	136341,00	86854,00	
Təmir xərcləri	6605,00	5593,00		
Amortizasiya	92672,00	115339,00	-22667,00	

Satılmış malların maya dəyəri 31 dekabr 2022-ci il tarixə 8421757,55 manat təşkil etmiş, 31 dekabr 2021-ci il tarixinə təsərrüfat fəaliyyətinin yekunu ilə müqayisədə 8334377,62 manat həmçinin təqribən 1% artmışdır.

13. İnzibati Xərclər

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
İnzibati xərclər	144173,96	180789,32	36615,36	20,25%
Rabitə xərcləri	14999,96	15249,13	-249,17	
Bank xidməti xərcləri	44560	41842,88	2717,12	
Sığorta xərci	84614	123697,31	-39083,31	

14. Sair əməliyyat xərcləri

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Sair əməliyyat xərcləri	6408,12	5745,58	-662,54	-11,53%
Mənfi məzənnə fərqi				
Əlavə hesablanmış vergilər	6408,12	5745,58	-662,54	

15. Ümumi Mənfəət (Zərər)

	2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
Ümumi Mənfəət (Zərər)	828152,37	548677,11	279475,26	50,94%

16. Mənfəət Vergisi

2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
165630,47	109735,42	55895,05	50,94%

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

	2022	2021
Cari mənfəət vergisi xərci	165630,47	109735,42
Təxirə salınmış vergi xərci		

KTÜMMUS-na və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20% (2021-ci il- 20%) qeydə alınır. Hazırkı maliyyə hesabatlarında təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri hesablanmamış və nəzərə alınmamışdır.

17. Hesabat Dövrünün xalis Mənfəəti

2022	2021	Məbləğ dəyişməsi	Faiz dəyişməsi
662521,9	438941,69	223580,21	50,94%

Cəmiyyət hesabat ilini mənfəətlə başa vurmuşdur.

23. Əlaqəli tərəflərlə əməliyyatlar

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərələrdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

24. Risklərin idarə edilməsi

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski

Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Cəmiyyətin pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

Bazar riski

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

Faiz dərəcəsi riski

Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

25. Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş verməmişdir.

Cəmiyyətin direktoru: **Ş.Rzali**

Auditor: **R.Rzayev**